## Əyyub Qiyas Abasov

### Bəyaz Paltar Geyərəm

Ölərəm xəbərim olmaz
Bunu mənə kim söyləyər.
Bəlkə anam, ya sevgilim,
Bəlkə də həkim söyləyər.

Eşidib ağı səsini
Çaşıb qalaram bəlkə də.
Mən qatarla, uçaqla yox
Ölüb gedərəm ölkədən.

İynəsiz, sapsız biçilən
Bəyaz bir paltar geyərəm.
Bəlkə ilk dəfə ömrümdə
Paltarımı dar geyərəm.

Mənə uzanan əllərin
Salamın ala bilmədim.
Ömürdən aldığım buymuş,
Qalanın ala bilmədim.

Gözündə qaldım bir qızın,
Qəlbinə keçə bilmədim.
Üstümə torpaq atmadı,
Qəbrimə köçə bilmədim.

Başdaşım üstə yazın ki,
O qız mənə yar olmasın.
Qəbrimi yekə qazın ki,
Sonra yerim dar olmasın